Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
“ İctimai və dövlət maraqlarının müdafiəsi”

# Türkşünaslıq və azərbaycanşünaslığın dialektiki

**III Yazı**

Azərbaycanşünaslıq çağdaş elmimizin ana xətti kimi, təbii ki, belə bir alicənab türkün geniş qəlbindən dərilə bilərdi - professor Nizami Cəfərovun. “Azərbaycanşünaslığa giriş” - alimin “epik” fəaliyyətinin ən fundamental bəhrəsi, onun çoxillik gərgin elmi yaradıcılıq axtarışlarının, mənim fikrimcə, birinci mərhələsinin yekun əsəridir. Azərbaycanşünaslıq - bu əsərlə dünya miqyasına tam rasional dəyərində, ölkəmizin simasını tanıdan, onun tarixini və perspektivlərini gerçək anladan ən etibarlı qaynaq statusunda çıxmaq imkanı qazanır.

Nizami Cəfərov elə tədqiqatının başlanğıcında doğru olaraq göstərir ki, “Azərbaycan haqqında müxtəlif mənşəli, müxtəlif xarakterli mənbələrin verdiyi bu və ya digər dərəcədə elmi məlumatlar qədim dövrlərdən başlasa da, azərbaycanşünaslıq kifayət qədər mükəmməl bir elm olaraq XX əsrin 30-cu illərində formalaşmışdır. Azərbaycanşünaslığın meydana çıxması Azərbaycanda elmi təfəkkürün inkişafı ilə yanaşı azərbaycançılıq dünyagörüşünün təşəkkülü ilə bağlı olmuşdur ki, bu da özünü milli-ictimai təfəkkürün müxtəlif sahələrində göstərmişdir. Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarixşünaslıqdır. Onun (azərbaycanşünaslığın) işi həmin elmlərin hər birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan haqqında ümumi təsəvvür yaratmaqdan, Azərbaycanın dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir”.

Professor azərbaycanşünaslığın konseptual ideyasını isə belə müəyyən edir: “Azərbaycanşünaslıq yalnız elmi-nəzəri, yaxud akademik bir sistem deyil, həm də get-gedə daha geniş yayılmaqda, Azərbaycan Respublikasının dövlət siyasətinə, dünyanın müxtəlif ölkələrində, təxminən 500 min kv. km.-lik ərazisi olan tarixi Azərbaycanda məskunlaşmış azərbaycanlıların dünyagörüşünə çevrilməkdə olan azərbaycançılıq ideologiyasının elmi-metodoloji əsasıdır”. Nizami Cəfərovun azərbaycanşünaslığında Azərbaycan humanitariyasının fakt, nəticə və müddəaları təbii orqanikasında, bu elmin özünün fakt, nəticə və müddəalarının, onların ümumiləşdirilməsinin özülü şəklində meydana çıxır.

Nizami Cəfərov məhz çağdaş azərbaycanşünaslıqda mümkün və effektli olan milli etnokulturoloji metodologiyanın yaradıcısıdır. Tarix, etnoqrafiya, etnopsixologiya, etnocoğrafiya, türkologiya, dilçilik, ədəbiyyatşünaslıq (bütövlükdə filologiya), estetika, fəlsəfə və kulturologiyanın və hətta onların konkret sahələrinin nəticəli müddəaları və müvafiq metodoloji xətləri Nizami Cəfərovun etnokulturoloji metodologiyasında üzvi şəkildə, yeni törəyişində - azərbaycanşünaslıq elminin əsasını təşkil edəcək bir biçimdə tutaşır, hörgülənir, hər birinin də öz lifi gətirdiyi məzmun, çalar və aspekti ilə bu ümumi dəstdə - metodoloji harmoniyada zərifcə bilinir.

Bu bütövlükdə Azərbaycan mədəniyyətinin substansiyası üzərində ayrı-ayrı humanitar elmləri fokuslaşdırmaqla onların güclü enerjisini alaraq, onun dərin, çoxqatlı mahiyyətini məhz azərbaycanşünaslığın milli etnokulturoloji metodologiyası ilə bütün parametrləri üzrə, tarixi-müqayisəli, diaxronik və sinxronik planda öyrənməyin bu gün üçün zərurətindən doğur. O, Azərbaycanın mədəniyyət tarixinə öz doğma ata evinə girirmiş kimi daxil oldu, onun taxçalarını ehmallıca yoxlayırmış, əntiq əşyalarının tozunu alırmış kimi, ələk-vələk edilmiş bu əşyaları yenidən öz sahmanınca düzürmüş kimi işlədi... Nəticədə, azərbaycançılıq milli ideologiyasının təməlində dayanan əsərlərdən birini ortaya qoydu.

Nizami Cəfərovun “Azərbaycanşünaslığa giriş” monoqrafiyası bir-birini tamamlayan beş böyük fəsildən ibarətdir: Birinci fəsildə Azərbaycan xalqının etnogenezisindən bu xalqın yaratdığı mədəniyyətin tipologiyasına qədər zəngin fenomenal hadisə və ona dürlü yanaşmalar elmi təhlildən keçirilir, Azərbaycan ədəbiyyatı tarixinin, Azərbaycan mədəniyyətinin diferensiasiyası və inteqrasiya problemlərinə, milli-tarixi özünüdərketmənin məntiqinə yeni baxış təqdim edilir; ikinci fəsildə qədim dövrdən orta əsrlərədək olan bir dövrdə türk dünyasının diferensiasiyası, Azərbaycanın etnokulturoloji coğrafiyasının müəyyənləşməsi - Azərbaycanın türkləşməsi, Azərbaycan xalqının təşəkkülü, Azərbaycan türkcəsinin formalaşması, ümumtürk ədəbi dilinin təşəkkülü, təkamülü və tənəzzülü, qədim (ümumtürk) eposundan orta əsrlər türk-oğuz eposuna, Tanrıçılıqdan İslama keçid mərhələləri, Dədə Qorquddan Nizamiyə, Nizamidən Nəsimi və Füzuliyə doğru ədəbi-bədii, fəlsəfi-estetik düşüncənin gəlişməsi araşdırılır; üçüncü fəsildə orta əsrlərdən yeni dövrə qədərki çağda Azərbaycan intibahının meydana çıxması, bu prosesdə müştərək Azərbaycan superetnosunun təşəkkülü, türk-oğuz eposundan Azərbaycan eposuna keçidin tipologiyası, Azərbaycan türkcəsinin milliləşməsi, Azərbaycan ədəbi dilində funksional üslubların təşəkkülü sürəcləri tədqiq edilir; dördüncü fəsildə yeni dövrdən ən yeni dövrə qədərki bir mərhələdə milli mədəniyyətimizin müasirləşməsi, Azərbaycanda milli dövlətçilik təfəkkürünün formalaşması və onun ideoloji əsasları, çağdaş Azərbaycan mədəniyyətindəki tendensiyalar və onların perspektivləri, Güzey və Güney Azərbaycanda ədəbi, bədii dilin funksional mahiyyəti, milli düşüncə hərəkatı incələnir. Bütün tədqiqat boyu aparılan analitik araşdırmalar bütövlükdə tarixi varlığımızın, milli düşüncə və mədəniyyətimizin qanunauyğunluqlarını təsbit edib sistemləşdirən ümumiləşdirmələrlə yekunlaşır.

Qədim türk kökündən müasir Azərbaycana gəlincə, Vətənimizi tarixi-kulturoloji tamlığında duymaq və dərk etmək, Vətənimizin tarixi həyatının inkişaf dialektikasını duymaq və dərk etmək mümkün olur. Türkologiyada, mədəniyyətşünaslıqda və digər müvafiq humanitar elmlərdə çoxlu dəyərli səylər olsa da, müəyyən elmi nəticələr əldə edilsə də, tam səmimiyyətlə demək olar ki, türk (Azərbaycan) tarixi-etnokulturoloji prosesləri indiyədək bu qədər mükəmməl elmi əsaslarda və təmiz türk qəlbi, türk zəkası ilə araşdırılmayıb, sistemləşdirilməyib, konseptual şəkildə nəticələndirilməyib.

Xüsusilə Azərbaycandakı etnogenetik və etnokulturoloji proseslərin, Azərbaycanın etnocoğrafiyasının genəlib daralmasının, tarixi Azərbaycanda dövlətlərin mənşəyinin şərh edilməsində iki zidd ifrat meyl bu kardinal problemlərin düzgün elmi əsaslarla öyrənilməsinə mane olub ki, həmin ifrat meyllərin tənqid edilməsi və problemin düzgün qoyuluşu Nizami Cəfərovun metodoloji konsepsiyasında mühüm yer tutur.

Bu ifrat meyllərdən biri - müəyyən tarixi-ideoloji bünövrəsi olan antitürklük, o biri milli hərəkatın selində köpüklənən, körüklənən romantik-bələğətli türkçülükdür. Nizami Cəfərov həm “bütöv bir ideoloji kompleksin tərkib hissəsi olan”, “məqsədi isə Azərbaycanı türk dünyasından ayırmaqdan, Azərbaycan xalqının etnik tərkibində türklüyün yerini minimuma, köçəri gəlmələrin qeyri-türk mənşəli aborigenlərə sistemsiz təsiri səviyyəsinə endirməkdən” ibarət olan azdırıcı antitürklük konsepsiyasına - yanlış tarix nəzəriyyəsinə, həm də real tarixi saxtalaşdıran çaşdırıcı ifrat “türkpərəstliyin” qeyri-elmi tendensiyalarına qarşı davamlı opponenentlikdə öz mövqeyini irəli sürür.

O, bütün cinahlarda - tarixçi ilə tarixçi kimi, filoloqla filoloq kimi, publisistlə publisist kimi, fəlsəfəşünasla fəlsəfəşünas kimi və onların hamısı ilə birlikdə Azərbaycanşünas kimi inadlı, inamlı polemika aparır. Tariximizə boş heyranlıq yox, ciddi elmi-analitik münasibət hissini yaradır. Tarixi gerçəkliyə məhz belə düzgün metodoloji münasibət onun faktlarını da yanılmadan şərh etmək üçün meydan açır.

Türk dünyasının humanist xarakterinin dünya üçün nə demək olduğunu tədqiqatında yeri gəldikcə qabardan Nizami Cəfərov ümumtürk tarixini, bu tarix içrə Azərbaycan tarixini ənənəvi olaraq müharibələr, dinastiyalar və onların “mexaniki” əvəzlənmələri tarixi kimi yox, mədəniyyət tarixi, canlı dilə söykənən mənəviyyat tarixi, düşüncə, yaşantı və ruhu ilə birlikdə soy tarixi kimi araşdırır. Türk ruhunun tükənməz potensiyasını çağ-çağ zühur etdirən söykək təməllərə - türk abidələrinə (zərif və möhtəşəm, döyüşkən və sülhsevər, müdrik və körpə kimi saf!) istinad edir. Azərbaycan və onun ətrafında gedən mürəkkəb tarixi prosesləri, mədəniyyət hərəkatlarını, ideologiya və dünyagörüşü dəyişmələrini - Azərbaycanın öz etnik-tarixi coğrafiyası konsepsiyasından çıxış edərək hərtərəfli araşdırmaya çəkir...

Ümumiyyətlə, professorun çoxspektrli tədqiqat metodologiyasının əsas tədqiqat obyekti tarixi düşüncə və tarixi yaddaşın təməl daşı - dil və eposdur. Özü də alim həndəvəri ilə Azərbaycan tarixinin keçdiyi yolu həm tarixin öz məntiqi, həm də bu günün məntiqi ilə açıqlayır. Bu harmoniyadan da fakt çoxtərəfli sınanışlarında açılır. İdeolojiləşdirilmiş sovet tarixşünaslığında isə məhz bu çatmırdı.

Tarixin məntiqi bu günün (bizim üçün artıq dünənin!) birtərəfli, dar, qəliblənmiş ideoloji məntiqinə sığdırılırdı. Nizami Cəfərov bu daşlaşmış konstruksiyanı tutarlı dəlil zərbələri ilə dağıtdı. Onun bu geniş polemika meydanında “tarix korifeyləri” ilə savaşının nəticəsi - güclü arqumentləri ilə qələbəsi tamamilə məntiqidir.

Bu, əslində, Azərbaycanın tarixi taleyinə düzgün yanaşmağın - həqiqətin qələbəsidir! Azərbaycan tarixşünaslığına zorla geydirilmiş həmin saxta, qondarma konstruksiyanı indi, şayəd, bir kimsə yenidən diriltmək istəsə, onun üstündə təkid etsə, Nizami Cəfərovun arqumentləri qarşısında çox sadəlövh, yöndəmsiz, lax görünər...

Nizami Cəfərovun azərbaycanşünaslıq tədqiqlərinin etnokulturoloji təqdimatında tarixin gerçəyi ümumtarixi proseslərin dörd əsas xəttində - etnik, linqvistik, mədəniyyət və dövlətçilik istiqamətlərində gəlişməsi belədir:

Azərbaycanda (və həmhüdud regionlarda) ilk sosial-siyasi birliklər təqribən e.ə. V minillikdə formalaşıb. E. ə. V-III minilliklərdə adları və etnik mənsubiyyətləri məlum olmayan azərbaycanlıları nəzərə almasaq, ölkənin e.ə. III- II minilliklərə aid sonrakı əhalisi məhz Qafqaz mənşəli olmuşdur... E.ə. II minilliyin sonu - I minilliyin əvvəllərindən etibarən Azərbaycan ərazisində İran etnosları məskunlaşmağa başlayıblar. Və həmin proses yalnız Azərbaycanın deyil, ümumən Ön Asiyanın etnik mənzərəsini əsaslı şəkildə dəyişdirib. Həmin dövrdə Qafqaz etnosları getdikcə daha ardıcıl şəkildə Şimala doğru sıxışdırılıb...

Azərbaycanın Şimalına (oradan da sonralar Şimali Qafqaza) sıxışdırılmış Qafqaz etnosları Alban dövlətini yaradıblar. Eramızdan əvvəlki son əsrlərdə, eləcə də eramızın ilk əsrlərində Azərbaycanın Şimalında əsasən uti, girdman, qarqaz tayfaları - tarixi mənbələrdə ümumi şəkildə “albanlar” (ağvanlar) adlandırılanlar yaşayıblar... E. ə. I minilliyin əvvəllərindən başlayaraq Azərbaycana (və həmhüdud regionlara) müxtəlif mənşəli etnoslardan ibarət sosial-siyasi birliklər - tayfa ittifaqları (kimmerlər, saklar, işkuzlar və s.) gələrək buradakı etnosiyasi mürəkkəbliyi bir qədər də artırıblar...

Birinci minilliyin ortalarından Azərbaycanda türk dövlətçiliyinin təməli qoyulur. İkinci minilliyin ortalarınadək Azərbaycanda bilavasitə biri digərinin varisi olan türk dövlətçilik mədəniyyətləri təşəkkül tapır:

1. Qədim (ümum) türk (hun-qıpçaq) dövlətçilik mədəniyyəti.
2. Türk-müsəlman (oğuz-səlcuq) dövlətçilik mədəniyyəti.

Məhz bu özül əsasında Azərbaycan coğrafiyasında genetik varisliklə Azərbaycan türk dövlətləri - Atabəylər və Səfəvilər dövlətindən tutmuş çağdaş müstəqil milli dövlətimizə qədər - yaranmış və xalqımızın ictimai- siyasi bütövlüyünün şərti olmuşdur.

Nizami Cəfərov universal türk təfəkkürünün (onun onurğa sütunu kimi dövlətçilik təfəkkürünün) tarixi təkamülünü izləyə-izləyə onun Azərbaycanda çevrələnib-lokallaşdığı vaxtdan bəri qazandığı unifikasiya keyfiyyətlərini, milli idrak kompleksini, mən deyərdim ki, bütün əsas spesifik təzahür xüsusiyyətləri ilə araşdırıb üzə çıxarmağa nail olub. Bu ümumi fonda Azərbaycan - tarixdə olduğu kimi, itirdikləri və qazandıqları ilə birlikdə bütöv görünür.



**Rahid Ulusel**
**Fəlsəfə elmləri doktoru, professor**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***